BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2013*

UOT94 "19/..."

# MDB-də İQTİSADİ İNTEQRASİYA VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ HAQQINDA

**A.Ş. ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*XX əsrin 80-ci illərinin sonlarında SSRİ-də sosial-iqtisadi və siyasi böhranın dərinləşməsi mərkəzdənqaçma meyllərini gücləndirmişdi. 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belorusiya liderləri Müstəqil Dövlətlər Birliyinin yarandığını bəyan etdilər, dekabrın 21-də Azərbaycan, Qazaxıstan, Özbəkistan, Ermənistan, Tacikistan, Qırğızıstan, Moldova və Türkmənistan da MDB-yə qoşuldular. Gürcüstan 1993-cü ilin dekabrında MDB-yə daxil oldu, 2008-ci ildə isə onu tərk etdi. Çoxsaylı sənədlərin qəbul edilməsinə baxmayaraq, MDB daxilində iqtisadi inteqrasiya zəif olaraq qalır, üzv-ölkələr arasında ticarət əlaqələri aşağı səviyyədədir. Təşkilat təhlükəsizlik sahəsində qarşıya qoyduğu məqsədlərə də tam nail ola bilməyib.*

**Açar sözlər:** MDB, iqtisadi inteqrasiya, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı

**Təşkilatın yaranması və strukturu:** 1991-ci ildə SSRİ-nin parçalanması qarşısıalınmaz bir prosesə çevrilmişdi. Avqust qiyamından sonra artıq SSRİ-nin saxlanılıb-saxlanılmaması məsələsi əsas müzakirə obyektinə çevrilmişdi. SSRİ-ni saxlamağa çalışan M.S.Qorbaçov Suveren Dövlətlərin Konfederasiyasını yaratmağı təklif etmiş, hətta yeni müqavilə layihəsi işlənib hazırlanmışdı (1). Bu konfederasiyanın yaradılması haqqında müqavilə dekabrın 9-da imzalanmalı idi, lakin Ukraynanın bu müqaviləni imzalamaqdan imtina etməsi prosesi çıxılmaz vəziyyətə gətirdi.

1991-ci il avqustun 24-də Ukrayna Ali Soveti Ukraynanın müstəqilliyinin elan olunması haqqında akt qəbul etdi və dekabrın 1-də bu məsələni ümumxalq referendumuna çıxardı. Referendum iştirakçılarının 90,32%-i dövlət müstəqilliyinin lehinə səs vermiş və bu respublikanın müstəqilliyi Rusiya Federasiyası tərəfindən tanınmışdı. Dekabrın 5-də M.S.Qorbaçov ilə görüşən B.N. Yeltsin Ukrayna olmadan yeni ittifaq müqaviləsinin öz əhəmiyyətini itirdiyini bəyan etmişdi (2, 2-3).

1991-ci il dekabrın 7-8-də Minsk yaxınlığında, "Belovejskaya Puşşa" adlanan yerdəki Viskuli bağ evində Rusiya prezidenti B.Yeltsin, Ukrayna

prezidenti L.Kravçuk və Belorusiya Ali Sovetinin sədri S.Şuşkeviç arasında keçirilmiş görüşün nəticəsi olaraq dekabrın 8-də Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında saziş imzalandı. MDB-nin yaradılması haqqında sazişin preambulasında qeyd edilir ki, "Biz, 1922-ci il İttifaq müqaviləsini imzalamış Belarus Respublikası, Rusiya Federasiyası (RSFSR), Ukrayna, SSR İttifaqının təsisçi-dövlətləri kimi... qeyd edirik ki, SSRİ beynəlxalq hüququn subyekti və geosiyasi reallıq kimi öz mövcudluğunu dayandırır" (3).

1991-ci il dekabrın 12-13-də Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistanın rəhbərləri Aşqabadda toplaşaraq MDB-yə bərabərhüquqlu həmtəsisçi kimi daxil olmaq istədiklərini bildirmiş, bu zaman onların tarixi və sosial-iqtisadi reallıqlarının nəzərə alınmasını tələb etmişdilər.

1991-ci il dekabrın 21-də Alma-Atada B.Yeltsin, L.Kravçuk, S.Şuşkeviçlə yanaşı, Azərbaycan prezidenti A.Mütəllibov, Qazaxıstan prezidenti N.Nazarbayev, Özbəkistan prezidenti İ.Kərimov, Ermənistan prezidenti L.Ter-Petrosyan, Tacikistan prezidenti R.Nəbiyev, Qırğızıstan prezidenti Ə.Akayev, Moldova prezidenti M.Snequr və Türkmənistan prezidenti S.Niyazov da MDB-nin yaradılması və SSRİ-nın mövcudluğunun dayandırılması haqqında Alma-Ata Bəyannaməsini (4) imzaladılar. Gürcüstan 1993-cü ilin dekabrında MDB-yə daxil oldu, 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra isə bu təşkilatı tərk etdi.

1992-1993-cü illərdə MDB daxilində qarşılıqlı münasibətlərinin hüquqi əsasları yaradıldı. 1993-cü il yanvarın 22-də isə təşkilatın Nizamnaməsi (5) qəbul edildi. Dövlət Başçıları Şurası təşkilatın ən ali orqanıdır. Ümumi maraqlar sahəsində üzv-dövlətlərin fəaliyyəti ilə bağlı prinsipial məsələlər bu şurada həll edilir. Bundan başqa təşkilatın strukturuna Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Parlamentlərarası Assambleya, Koordinasiya-Məsləhət Komitəsi, Müdafiə Nazirləri Şurası, Birləşmiş Silahlı Qüvvələrin Baş Komandanlığı, Sərhəd Qoşunları Komandanları Şurası, İqtisadi Məhkəmə, İnsan Hüquqları üzrə Komissiya daxildir.

**MDB çərçivəsində iqtisadi inteqrasiya prosesləri:** MDB ölkələri arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri təşkilatın Nizamnaməsində öz əksini tapmışdır. Bura bazar münasibətləri və əmtəələrin, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti əsasında ümumi iqtisadi məkanın formalaşdırılması, sosial siyasətin əlaqələndirilməsi, iqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar olaraq yaranan sosial gərginliyin azaldılması üçün birgə sosial proqramların işlənib hazırlanması, nəqliyyat və rabitənin, enerji sistemlərinin inkişaf etdirilməsi, kredit-maliyyə siyasətinin əlaqələndirilməsi, sərmayələrin həvəsləndirilməsi və qarşılıqlı müdafiəsi, ticari-iqtisadi əlaqələrinin inkişafına, sənaye məhsullarının və əmtəələrin standartlaşdırılması və sertifikatlaşdırılmasına yardım göstərilməsi və s. daxildir.

1993-cü il sentyabrın 24-də Moskvada "İqtisadi birliyin yaradılması haqqında müqavilə" (6) imzalandı. Bu müqavlə üzv-dövlətlərdə həyat səviyyəsini qaldırmaq məqsədilə iqtisadiyyatın stabil inkişafı üçün şəraitin yaradılmasını,

bazar münasibətləri əsasında mərhələlərlə ümumi iqtisadi məkanın formalaşdırılmasını, bütün təsərrüfat subyektləri üçün bərabər imkan və təminatların yaradılmasını, ümumi maraq doğuran birgə iqtisadi layihələrin həyata keçirilməsini, birgə səylərlə ekoloji problemlərin həllini, həmçinin təbii fəlakət və qəzaların nəticələrinin aradan qaldırılmasını nəzərdə tutur. İqtisadi birlik həm də əmtəələrin, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst , əlaqələndirilmiş pul-kredit, büdcə, vergi, qiymət, xarici iqtisadi, gömrük və valyuta siyasətinin həyata keçirilməsini, müqavilə tərəflərinin harmonik təsərrüfat qanunvericiliyinin və ümumi statistik bazanın yaradılmasını təmin etməlidir. MDB ölkələri arasında iqtisadi inteqrasiyanı dərinləşdirmək, iqtisadi islahatları əlaqələndirilmiş şəkildə həyata keçirmək məqsədilə dövlətlərarası azad ticarət assosiasiyası, gömrük ittifaqı, əmtəələrin, xidmətlərin, kapitalın və işçi qüvvəsinin ümumi bazarını, valyuta ittifaqı yaratmaq nəzərdə tutulur.

MDB-nin mövcud olduğu 20 il ərzində İqtisadi Birliyin yaradılması haqqında müqavilə ilə müəyyənləşdirilmiş məqsəd və vəzifələrin reallaşdırılması üçün 400-dən çox qərar, saziş, müqavilə və s. hazırlanaraq təsdiq edilmişdir, lakin onların çoxu həyata keçirilməmiş qalır.

1994-cü ilin oktyabrında MDB Dövlət Başçıları Şurası tərəfindən daimi əsaslarda fəaliyyət göstərən icra orqanı – Dövlətlərarası İqtisadi Komitə yaradıldı. Komitənin əsas məqsədi ölkələr arasında inteqrasiya proseslərini dərinləşdirmək, İqtisadi Birliyin səmərəli fəaliyyətini, dövlət və hökumət başçıları şuralarının qərarlarının həyata keçirilməsini təmin etməkdən ibarətdir. Fəaliyyəti dövründə Dövlətlərarası İqtisadi Komitə MDB-yə üzv-dövlətlərdə həyata keçirilən iqtisadi islahatlar, struktur dəyişiklikləri, onların xarici iqtisadi əlaqələri, ticarət münasibətləri və s. haqqında analitik materiallar, iqtisadi əməkdaşlığın genişləndirmək məqsədilə normativ sənədlər hazırlamışdır (7, 1).

MDB çərçivəsində iqtisadi inteqrasiyanın zəif olması təşkilatın fəaliyyətinin ilk illərindən başlayaraq müşahidə olunur. 1991-1995-ci illərdə sosial-iqtisadi əlaqələr üzrə qəbul edilmiş dövlətlərarası və hökumətlərarası aktların həyata keçirilməsinin nəticələri haqqında hazırlanmış arayışda inteqrasiya proseslərinə mane olan məqamlar göstərilmişdir (8, 245). Arayışda qeyd olunur ki, qəbul edilmiş dövlətlərarası və hökumətlərarası razılaşmaların əhəmiyyətli hissəsi deklarativ xarakter daşıyır, bu razılaşmalarda irəli sürülən məqsəd və vəzifələrin həyata keçirilmə mexanizmi müəyyənləşdirilməmişdir, razılaşmalarda qərarların maliyyə təminatı ilə bağlı maddələr yoxdur, onların yerinə yetirilməsi üçün cavabdeh olan milli, dövlətdaxili orqanlar müəyyənləşdirilmir, iştirakçı dövlətlər tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməsi üzərində dövlətlərarası nəzarət nəzərdə tutulmur, müəyyən məsələ barədə yeni razılaşma imzalanarkən, eyni məsələ üzrə əvvəllər qəbul edilmiş, öz aktuallığını itirmiş və ya qismən yerinə yetirilmiş razılaşmaların ləğvi nəzərdə tutulmur.

Oxşar mənzərənin sonrakı illərdə də davam etməsi təşkilatın fəaliyyətində ciddi problemlərin meydana gəlməsi ilə nəticələnmişdir. 1997-ci ilin oktyabrında keçirilmiş Kişinyov sammiti isə MDB-nin artıq böhranla üzləşdiyni

deməyə imkan verir.

"Kommersant" qəzetinin müxbiri A. Volınetsin qeyd etdiyi kimi, Kişinyov sammitində MDB dövlət başçıları bir-birini, hamısı birlikdə isə Rusiya prezidenti, təşkilatın sədri B. Yeltsini tənqid etmişdilər və bunun da əsas səbəbi MDB-nin böhranda olması idi (9). İstər Kişinyov sammiti, istərsə də sonrakı görüşlər MDB-ni fəal, dinamik inkişaf edən bir təşkilata çevirə bilmədi.

MDB-də iqtisadi inteqrasiya proseslərinin gözlənilən səviyyədən uzaq olması bir sıra səbəblərlə bağlıdır. Hər şeydən əvvəl, MDB ölkələrinin qarşılıqlı iqtisadi əlaqələrinin yaranması və inkişafında meydana gələn və obyektiv xarakterli problemləri qeyd etmək lazımdır. Artıq 20 ildən çoxdur ki, bu ölkələrdə planlı iqtisadiyyatın və kollektivçiliyə əsaslanan ictimai münasibətlərin aradan qaldırılması, bazar münasibətlərinin, demokratik cəmiyyətin qurulması üçün islahatlar aparılır, yeni idarəetmə formaları təşəkkül tapır, buna baxmayaraq, sosial-iqtisadi inkişaf səviyyəsinə, həyata keçirilən iqtisadi və siyasi islahatların sürətinə görə ölkələr arasında ciddi fərqlər qalmaqda davam edir.

Ölkələrinin xarici siyasi və iqtisadi fəaliyyət istiqamətlərindəki fərqlər də inteqrasiyanın hayata keçirilməsinə mane olan amillərdəndir. Məsələn, Cənubi Qafqazda Azərbaycan və Gürcüstan xarici iqtisadi fəaliyyət sahəsində MDB ölkələrindən daha çox Türkiyə, ABŞ və Qərbi Avropa ölkələri ilə münasibətlərin inkişaf etdirilməsinə fikir verirlər. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzrum qaz kəmərlərinin istifadəyə verilməsi Qərb ölkələrinin sərmayələri və siyasi dəstəyi nəticəsində mümkün olmuşdur. Tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmiryolu isə Türkiyə, Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin yüksək olduğunu göstərir. Ermənistan üçün isə əksinə, Rusiya ilə əlaqələr prioritet olaraq qalır. Diqqəti Ermənistanın Rusiya ilə əlaqələrinin qeyri-bərabər, birtərəfli xarakter daşıması cəlb edir. Hal-hazırda Ermənistan iqtisadiyyatının energetika, nəqliyyat kimi strateji sahələri Rusiyanın nəzarəti altına keçmişdir, bu da ölkənin iqtisadi cəhətdən müstəqil olmadığını göstərir.

MDB-nin iqtisadi inteqrasiya sahəsində üzləşdiyi problemlərdən biri də, təşkilatdaxili ticarət əlaqələrinin davamlı olaraq zəifləməsidir. Əgər 1990-cı ildə keçmiş sovet respublikalarının qarşılıqlı mal dövriyyəsi 69%-ə bərabər idisə, 1998-ci ildə MDB ölkələrinin xarici ticarətinin yalnız 31,2%-i öz aralarında olan ticarətin payına düşürdü (10, 10).

MDB ölkələrinin xarici ticarət əməliyyatlarının ümumi həcmi 1994-cü ildə 151914 mln. dollara, 2000-ci ildə 207647 mln. dollara, 2005-ci ildə 510207 mln. dollara, 2010-cu ildə isə 933 628 mln. dollara bərabər olmuşdu. Bu ölkələrin öz aralarındakı qarşılıqlı ticarətin həcmi 1994-cü ildə 52971 mln. dollara, 2000-ci ildə 58038 mln. dollara, 2005-ci ildə 117612 mln. dollara, 2010-cu ildə 203 752 mln. dollara bərabər idisə, MDB-dən kənar ölkələrlə qarşılıqlı ticarətin həcmi illər üzrə uyğun olaraq 98943 mln., 150013 mln., 392596 mln. və 729 876 mln. dollar təşkil etmişdi (11). Bu, o deməkdir ki, 1994-cü ildə MDB-nin xarici ticarət əməliyyatlarının ümumi həcminin 34,8%-i təşkilata üzv-dövlətlər arasındakı qarşılıqlı ticarətin, 65,2%-i isə dünyanın digər ölkələri

ilə ticarətin payına düşürdü. Bu nisbət 2000-ci ildə uyğun olaraq 27,8% və 72,2%, 2005-ci ildə 23,1% və 76,9%, 2010-cu ildə isə 21,8% və 78,2% olmuşdu. Göründüyü kimi, MDB-yə üzv ölkələr arasındakı qarşılıqlı ticarət əlaqələrinin həcmi 1994-cü ildən 2010-cu ilədək təxminən 40% azalmışdı.

1994-cü ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin ümumi həcmi 1415 mln. dollara, MDB ölkələri ilə qarşılıqlı ticarət dövriyyəsinin həcmi isə 760 mln. dollara bərabər olmuşdusa, 2000-ci ildə bu göstəricilər uyğun olaraq 2917 mln. və 610 mln. dollar, 2005-ci ildə 8547 mln. və 2351 mln. dollar, 2010-cu ildə isə 27924 mln. və 4035 mln. dollar təşkil etmişdi (11). Deməli, Azərbaycanın xarici ticarət dövriyyəsinin 1994-cü ildə 53,7 %-i, 2000-ci ildə 20,9 %-i, 2005-ci ildə 27,5 %-i, 2010-cu ildə isə cəmi 14,4 %-i MDB ölkələri ilə ticarətin payına düşürdü.

Rusiyanın xarici ticarət dövriyyəsi 1994-cü ildə 105523 mln. dollara, 2000-ci ildə 136961 mln. dollara, 2005-ci ildə 339857 mln. dollara, 2010-cu ildə isə 625395 mln. dollara bərabər olmuşdu, bunun illər üzrə uyğun olaraq 24178 mln. dolları, 25417 mln. dolları, 51520 mln. dolları və 91255 mln. dolları MDB ölkələri ilə qarşılıqlı ticarətə aid idi (11). Başqa sözlə, Rusiyanın xarici ticarət dövriyyəsinin tərkibində MDB ölkələri ilə qarşılıqlı ticarətin xüsusi çəkisi 1994-cü ildə 22,9 %-ə, 2000-ci ildə 18,5 %-ə, 2005-ci ildə 15,1 %-ə və 2010-cu ildə isə 14,5 %-ə bərabər olmuşdu.

Ümumiyyətlə, ticarət sahəsində üzv-ölkələr MDB məkanından müxtəlif sürətlə uzaqlaşırlar. MDB-nin yaradılmasının təşəbbüskarlarından olan, təşkilatı öz təsiri altında saxlamaq üçün vaxtaşırı müxtəlif təkliflərlə çıxış edən Rusiyanın MDB ölkələri ilə qarşılıqlı ticarət əlaqələri daha sürətlə zəifləyir. Bu mənada, Azərbaycanı da qeyd etmək olar.

MDB məkanında mövcud olan münaqişələr iqtisadi inteqrasiyanın genişlənməsinə mane olan əsas amillərdən biridir. Mövcud münaqişələr səbəbindən təşkilatın bəzi ölkələri arasında nəinki iqtisadi və siyasi, hətta mədəni və humanitar əlaqələr belə yoxdur. Ermənistanın Azərbaycan ərazisində separatizmi dəstəkləməsi və onun ərazisinin 20%-ni işğal etməsi səbəbindən bu iki respublika arasında heç bir əlaqə mövcud deyildir. Rusiyanın Abxaziya və Cənubi Osetiyada separatizmi alovlandırması Gürcüstanın şimal qonşusu ilə münasibətlərinə mənfi təsir göstərmişdir.

MDB ölkələri arasında texnoloji əməkdaşlığın aşağı səviyyədə olması da iqtisadi inteqrasiyaya mane olan amillərdəndir. Texnoloji inkişafın və əməkdaşlığın zəifliyi bu ölkələri daha çox xammal ixracatçılarına çevirmişdir.

İqtisadi inteqrasiya proseslərinin dalana dirənməsi, MDB daxilində iqtisadi və siyasi xarakterli ziddiyyətlərin mövcudluğu müxtəlif subregional təşkilatların (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistanın üzv olduqları Gömrük Birliyi, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın təsis etdiyi Mərkəzi Asiya İqtisadi Birliyi, Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduğu GUAM, Rusiya və Belarusu birləşdirən İttifaq dövləti, Rusiya, Qazaxıstan, Ukrayna və Belarus tərəfindən yaradılmış Vahid

İqtisadi Məkan) meydana gəlməsi ilə nəticələnmişdir. İnteqrasiya proseslərini genişləndirmək məqsədilə əməkdaşlığın bu səviyyəsində atılan addımlar da çox vaxt formal xarakter daşıyır və qeyri-səmərəliliyi ilə seçilir.

**Təhlükəsizlik və hərbi-siyasi sahədə əməkdaşlıq:** Təhlükəsizlik və bununla əlaqədar olaraq hərbi-siyasi sahədə əməkdaşlıq məsələləri MDB-nin fəaliyyətində əsas yerlərdən birini tutur. MDB Nizamnaməsinə görə üzv-dövlətlər beynəlxalq təhlükəsizlik, tərksilah və silahlar üzərində nəzarət sahəsində, silahlı qüvvələrin yaradılmasında əlaqələndirilmiş siyasət həyata keçirir, Birlikdə hərbi müşahidəçilərin və sülhün qorunması üzrə kollektiv qüvvələrin iştirakı ilə təhlükəsizliyi təmin edir. Üzv-dövlətlərdən birinin və ya bir neçəsinin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə, həmçinin beynəlxalq sülhə təhlükə yarandığı təqdirdə mövqeləri əlaqələndirmək və qərar qəbul etmək üçün qarşılıqlı məsləhətləşmələrin aparılması nəzərdə tutulur. Təhlükəni aradan qaldırmaq məqsədilə sülhyaradıcı əməliyyatlar həyata keçirilə və BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq silahlı qüvvələrdən istifadə oluna bilər. Xarici sərhədlərin stabilliyini təmin etmək üçün üzv-dövlətlər lazımi tədbirlər görməli, qarşılıqlı razılıq əsasında sərhəd qoşunlarının və digər səlahiyyətli xidmətlərin fəaliyyətləri əlaqələndirilməlidir. Üzv-dövlətlər millətlərarası və konfessiyalararası münaqişələrin qarşısını almaq üçün bütün mümkün tədbirləri həyata keçirməli, belə münaqişələrin tənzimlənməsinə yardım etməli, bir-birinə ziyan verə və mümkün mübahisələri kəskinləşdirə biləcək hərəkətlərdən çəkinməli, öz aralarındakı mübahisələri ədalətlə və dinc yollarla həll etmək üçün səy göstərməlidirlər. Bu mümkün olmadıqda məsələ Dövlət Başçıları Şurasının müzakirəsinə çıxarılmalı, Şura isə mübahisənin tənzimlənmə üsulu və metodları barədə tərəflərə tövsiyyələr verə bilər.

Üzv-ölkələrinin təhlükəsizlik sahəsindəki əməkdaşlığı beynəlxalq terrorizm, münaqişə zonalarında sülhyaratma əməliyyatları, narkotik maddələrin hazırlanması, daşınması və ticarəti, qeyri-leqal miqrasiya, qeyri-qanuni silah alveri və s. sahələri əhatə edir. Hərbi kadrların hazırlanması, hərbi-texniki əməkdaşlıq, hava hücumundan birgə müdafiə də MDB-nin təhlükəsizlik siyasətində mühüm yer tutur.

1992-ci il mayın 15-də Daşkənddə imzalanmış "Kollektiv təhlükəsizlik haqqında müqavilə" (12) postsovet məkanında kollektiv təhlükəsizlik sisteminin yaradılmasını nəzərdə tuturdu. İlkin olaraq Rusiya, Ermənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan tərəfindən imzalanmış bu müqaviləyə 1993-cü il sentyabrın 24-də Azərbaycan, dekabrın 9-da Gürcüstan və 1994-cü il yanvarın 3-də isə Belarus qoşuldu.

Müqavilə iştirakçıları dövlətlərarası münasibətlərdə güc tətbiqindən və güclə hədələmədən imtina etmək, öz aralarındakı və digər dövlətlərlə olan bütün fikir ayrılıqlarını dinc vasitələrlə aradan qaldırmaq, hərbi ittifaqlara qoşulmamaq, dövlətlərin hər hansı qruplaşmasında, həmçinin digər iştirakçı dövlətə qarşı yönəlmiş hərəkətlərdə iştirak etməmək haqqında öhdəlik götürmüşdülər.

İştirakçı dövlətlər təhlükəsizliklə bağlı məsələləri həll etmək, xüsusilə

onların ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş təhlükələri aradan qaldırmaq üçün məsləhətləşmələr mexanizmindən istifadə etməlidirlər. Müqavilə iştirakçılarından hər hansı birinə qarşı yönəlmiş təcavüz eyni zamanda bütün iştirakçı dövlətlərə qarşı təcavüz kimi qiymətləndirilməli və onun aradan qaldırılması üçün iştirakçı dövlətlərin hamısı təcavüzə məruz qalan dövlətə yardım, hətta hərbi yardım göstərməlidirlər.

"Kollektiv təhlükəsizlik haqqında müqavilə"yə uyğun olaraq iştirakçı dövlətlərin dövlət başçılarının və MDB-nin birləşmiş silahlı qüvvələrinin baş komandanının daxil olduqları Kollektiv Təhlükəsizlik Şurası yaradıldı.

Birliyin üzv-dövlətlərinin xarici sərhədlərində stabil vəziyyətin təmin edilməsi üzrə əməkdaşlıq haqqında 1992-ci il oktyabrın 9-da Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan tərəfindən imzalanmış razılaşma (13) MDB-nin xarici sərhədlərində stabilliyin qorunub saxlanılması məqsədilə əlaqələndirilmiş siyasətin həyata keçirilməsini, bu sahədə problem meydana gəldiyi təqdirdə, uyğun qərarın qəbul edilməsi üçün razılaşmanı imzalamış dövlətlər arasında məsləhətləşmələrin aparılmasını, onların sərhəd, milli təhlükəsizlik, daxili işlər, gömrük, fito-sanitariya və konsulluq xidmətlərinin fəaliyyətinin əlaqələndirilməsini və s. nəzərdə tuturdu.

MDB tərəfindən qəbul olunmuş sənədlərin çoxu kimi, təhlükəsizlik sahəsinə aid olan sənədlər də deklarativ xarakter daşıyır, onların həyata keçirilməsi istiqamətində heç bir konkret addım atılmırdı. Əksinə, imzalanmış müqavilələr, keçmiş sovet respublikaları ərazisində müxtəlif bəhanələrlə öz hərbi iştirakını saxlamağa çalışan Rusiyanın əlində bir vasitəyə çevrilir, digər ölkələrin təhlükəsizliyi ilə bağlı məsələlər isə arxa plana keçirdi. Məsələn, MDB-yə üzv ölkələrdən Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü və suverenliyi pozulmuşdur. Azərbaycan və Gürcüstanın "Kollektiv təhlükəsizlik haqqında müqavilə"yə qoşulmalarına baxmayaraq, onların üzləşdikləri problemlərin aradan qaldırılması üçün heç bir əməli təşəbbüs göstərilməmiş, konkret addım atılmamışdı.

"Kollektiv təhlükəsizlik haqqında müqavilə"nin formal bir sənəd olduğunu nəzərə alan Azərbaycan, Gürcüstan və Özbəkistan 1999-cu ildə, müqavilənin fəaliyyət müddətinin növbəti beş il üçün uzadılmasını nəzərdə tutan protokolu imzalamaqdan imtina etdilər.

2002-ci il mayın 14-də Moskvada Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan nümayəndələri "Kollektiv təhlükəsizlik haqqında müqavilə"ni beynəlxalq təşkilata – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) çevirmək qərarına gəldilər (2006-ci ildən Özbəkistan da bu təşkilatın üzvüdür) və oktyabrın 7-də Kişinyov şəhərində təşkilatın Nizamnaməsini qəbul etdilər (14). Nizamnamədə KTMT-nin yaradılmasında əsas məqsəd kimi sülhün, beynəlxalq və regional təhlükəsizliyin və stabilliyin möhkəmləndirilməsi, üzv-dövlətlərin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin kollektiv formada müdafiəsi göstərilmiş və bu məqsədə siyasi vasitələrlə nail olmaq prioritet kimi seçilmişdir.

KTMT-nin fəaliyyətinin əsas istiqamətləri kimi təşkilat daxilində kollektiv təhlükəsizlik sistemlərinin, orduların və onların idarəetmə orqanlarının regional qruplaşmalarının, hərbi infrastrukturunun yaradılması, silahlı qüvvələr üçün hərbi kadrların və mütəxəssislərin hazırlanması, onların lazımi silah və hərbi texnika ilə təmin olunması müəyyənləşdirilmişdir. Üzv-dövlətlər beynəlxalq terrorizm və ekstremizm, narkotik vasitələrin və psixotrop maddələrin, silahların qeyri-qanuni dövriyyəsi, təşkilatlanmış transmilli cinayətkarlıq, qeyri-leqal miqrasiya və təşkilat iştirakçılarına qarşı yönəlmiş digər təhlükələr ilə mübarizə aparmalı və bu zaman məsləhətləşmə mexanizmindən istifadə etməlidirlər.

Hal-hazırda KTMT çərçivəsində Rusiya-Belarus, Rusiya-Ermənistan və Mərkəzi Asiya regional qruplaşmaları mövcuddur (15, 54). 2005-ci ildə təşkilata üzv-dövlətlərin prezidentləri KTMT-də hərbi-iqtisadi əməkdaşlıq üzrə dövlətlərarası komissiyanın yaradılması haqqında qərar qəbul etdilər. Yeni strukturun yaradılmasında məqsəd iştirakçı dövlətlərin hərbi-iqtisadi və hərbi-texniki sahədə əməkdaşlığını dərinləşdirmək üçün onların səylərini birləşdirməkdən və əlaqələndirməkdən ibarət idi. 2007-ci ildə “Kollektiv sülhyaradıcı qüvvələr haqqında” əsasnamə qəbul edildi (15, 55).

KTMT, demək olar ki, tamamilə Rusiyanın iradəsindən aslıdır. Birincisi, Moskva KTMT-də təmsil olunmuş dövlətlərə Rusiyanın daxilində mövcud olan qiymətlərə silah satır, onlar üçün Rusiyanın hərbi məktəblərində kadrlar və mütəxəssislərin hazırlanmasına şərait yaradır, təşkilatın büdcə xərclərinin 50%-ə qədərini ödəyir (16, 141). Bütün bunlar Rusiyaya KTMT-yə üzv-dövlətləri öz təsiri altında saxlamağa imkan verir. İkincisi, Rusiya KTMT-dən iştirakçı dövlətlərin ərazisində öz silahlı qüvvələrini saxlamaq üçün istifadə edir. Məsələn, KTMT-nin Mərkəzi Asiya regional qruplaşmasına daxil olan on batalyondan üçü Rusiyanın, ikisi Qazaxıstanın, yerdə qalan beşi isə hərəsi birinin olmaqla digər dövlətlərin hesabındadır (15, 54-55). Rusiya-Ermənistan hərbi qruplaşmasına isə Rusiyanın Ermənistan ərazisində yerləşdirilmiş 102-ci hərbi bazasının bölmələri və Ermənistan silahlı qüvvələrinin 5-ci ordu korpusu daxildir. Üçüncüsü, iştirakçı dövlətlərin ərazi bütövlüyünü və suverenliyini qorumağı qarşısına məqsəd qoyan bir təşkilatın təsisçilərindən ikisi –Ermənistan və Rusiya–MDB üzvü olan digər dövlətlərin (Azərbaycan, Gürcüstan, Moldova) ərazisində separatizmi açıq şəkildə dəstəkləyir, onların ərazi bütövlüyünün və suverenliyinin pozulmasına gətirib çıxaran fəaliyyətlə məşğul olur və bunu bu gün də davam etdirirlər. Tərkibində belə ikili standartlardan istifadə edən dövlətlərin yer alması KTMT-ni amorf bir təşkilata çevirmişdir. Nəhayət, Gürcüstanın ümumiyyətlə, MDB-ni Özbəkistanın KTMT-ni tərk etməsi, Ukrayna, Azərbaycan və Moldovanın KTMT-dən kənarda qalması bu təşkilatın effektivliyini azaldır.

MDB məkanında təhlükəsizliyin təmin olunması və çoxtərəfli hərbi-texniki əməkdaşlığın həyata keçirilməsi sahəsində ən böyük maneə həllini tapmamış münaqişələrdir. Bu münaqişələrin tənzimlənməsinin hüquqi əsaslarını

yaratmaq istiqamətində müəyyən sənədlər qəbul edilmişdir. Onlardan biri, "Müstəqil Dövlətlər Birliyində sülhü təmin etmək üzrə hərbi müşahidə qrupları və kollektiv qüvvələr haqqında razılaşma" 1992-ci il oktyabrın 2-də Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Moldova, Ermənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistanın nümayəndələri tərəfindən imzalanmışdır (17). Müqavilədə MDB-nin istənilən ölkələsinin ərazisində millətlərarası, konfessiyalararası və siyasi münaqişələri tənzimləmək və onların qarşısını almaq məqsədilə hərbi müşahidə qruplarının və kollektiv qüvvələrin yaradılması nəzərdə tutulurdu. Hərbi müşahidə qrupları və kollektiv qüvvələrin qarşısında münaqişə tərəflərini aralamaq, atəşkəs və ya barışıq haqqında razılaşmaların həyata keçirilməsini müşahidə etmək, qarşı duran tərəflərin tərksilah edilməsi haqqında müqavilələrin yerinə yetirilməsinə nəzarət etmək, meydana gələn mübahisələrin və münaqişələrin dinc vasitələrlə tənzimlənməsi üçün şərait yaratmaq, insan hüquq və azadlıqlarının təmin olunmasına yardım etmək, humanitar yardım göstərmək kimi vəzifələr durur. Hərbi əməliyyatlarda bu qüvvələrdən istifadə edilə biməz. Hərbi müşahidə qrupları və kollektiv qüvvələr razılaşmanın iştirakçı dövlətləri tərəfindən könüllülük əsasında yaradılır və Dövlət Başçıları Şurası tərəfindən təyin edilmiş şəxs onlara komandanlıq edir. İştirakçı-dövlətlər özlərinin sülhyaradıcı, neytral və bitərəf statusunu saxlamaq haqqında öhdəlik götürürlər.

Digər bir sənəd, "Kollektiv sülhyaradıcı qüvvələr və onların maddi-texniki təminatı üzrə birgə tədbirlər haqqında razılaşma" 1993-cü il sentyabrın 24-də Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan nümayəndələri tərəfindən imzalanmışdı (18). Bu razılaşma sülhyaratma vəzifələrini yerinə yetirmək məqsədilə və iştirakçı dövlətlərin ayırdığı silahlı qüvvələrdən, əmlakdan, hərbi texnika və sursatdan istifadə etməklə Kollektiv sülhyaradıcı qüvvələrin və onların Birləşmiş komandanlığının yaradılmasını nəzərdə tutur. Birləşmiş komandanlığa tabe olan hərbiçilər onları qəbul edən ölkənin suverenliyinə və qanunvericiliyinə hörmət etməli, onun daxili işlərinə qarışmamalı və daxili münaqişələrdə iştirak etməməlidir. Qeyd olunan komandanlığın fəaliyyəti iştirakçı-dövlətlər tərəfindən və aşağıdakı nisbətdə maliyyələşdirilir:

Rusiya Federasiyası - 50%
Qazaxıstan Respublikası - 15%
Özbəkistan Respublikası - 15%
Qırğızıstan Respublikası - 10%
Tacikistan Respublikası - 10%

Münaqişələri sülh yolu ilə tənzimləmək üçün MDB səviyyəsində qəbul olunmuş razılaşmalar ilk dəfə Cənubi Osetiya münaqişəsi zonasında tətbiq edilmişdir. 1992-ci il iyunun 24-də Münaqişənin sülh yolu ilə tənzimlənməsinin prinsipləri haqqında Rusiya və Gürcüstan arasında imzalanmış razılaşmaya əsasən Birləşmiş Hərbi Qruplaşma Cənubi Osetiya ərazisində yerləşdirilmişdi. 1994-cü ilin aprelində MDB-nin sülhyaradıcı qüvvələri gürcü-abxaz münaqişəsi zonasında da yerləşdirilmişdi. Sülhyaradıcı qüvvələr adı altında hər iki

münaqişə zonasına rus qoşunları yeridilmişdi (19, 42). Hadisələrin sonrakı inkişafı göstərdi ki, Birləşmiş komandanlıq pərdəsi altında Gürcüstanda yerləşdirilmiş rus hərbi qüvvələrinin əsas məqsədi münaqişələrin dinc vasitələrlə və ərazi bütövlüyü prinsipi əsasında həll olunmasına deyil, Cənubi Osetiya və Abxaziyanın mərhələlərlə Gürcüstandan ayrılmasına yardım etməkdən ibarət olmuşdur. 2008-ci ilin avqustunda Gürcüstan silahlı qüvvələrinin Cənubi Osetiya ərazisində həyata keçirdiyi hərbi əməliyyatlardan istifadə edən Rusiyanın Gürcüstan ərazisinə müdaxiləsi nəticəsində Abxaziya və Cənubi Osetiya öz müstəqilliklərini bəyan etdilər və Rusiya onların müstəqilliyini dərhal tanıdı. Bu da MDB-nin, Rusiya tərəfindən də tanınmış rəsmi sənədlərinin tələblərinin (vasitəçi dövlət özünün neytral və bitərəf statusunu qorumalı, sülhyaradıcı qüvvələr ərazisində yerləşdikləri ölkənin suverenliyinə və qanunlarına hörmət etməli, onun daxili işlərinə qarışmamalı və daxili münaqişələrdə tərəf kimi iştirak etməməlidirlər) kobud surətdə pozulmasıdır.

Rusiya və Ermənistan MDB-nin sülhyaradıcı qüvvələri adı altında rus qoşunlarını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zonasında da yerləşdirməyə dəfələrlə cəhd etmiş, lakin Azərbaycanın etiraz etməsi səbəbindən bu mümkün olmamışdır.

## ƏDƏBİYYAT


1. Проект договора о Союзе Суверенных Государств. Газ. «Правда». М., 1991, 27 ноября.
2. Медведев Р. Советский Союз. Последние годы жизни. Конец советской империи. М.: АСТ: АСТ МОСКВА: Полиграфиздат, 2010, 637 с.
3. Соглашение от 8 декабря 1991 года о создании Содружества Независимых Государств // http://www.referent.ru/1/43609
4. Алма - Атинская Декларация // http://www.referent.ru/1/43609
5. Устав Содружества Независимых Государств // http://cis.minsk.by/reestr/ ru/ index. html #reestr/ view/text?doc=187
6. Договор о создании экономического союза // http://cis.minsk.by/reestr/ru/ index. html#reestr/view/ text?doc=257
7. Токаев К. К. Под стягом независимости: очерки о внешней политике Казахстана. Алматы: Билим, 1997. 736 с.
8. Исингарин Н.К. Проблемы интеграции в СНГ. Алматы: Атамура, 1998. 216 с.
9. Волынец А. Кишиневский саммит. Кишиневская фронда. Газ. «Коммерсантъ», М., 1997, 24 октября
10. Султанов Ш. Проблемы и перспективы развития СНГ. К итогам Московского саммита глав государств Содружества от 25 января 2000 года // Центральная Азия и Кавказ. 2000, № 3, с. 11-16.
11. Основные социально-экономические показатели государств – участников СНГ за 1992 (1994) – 2010 годы // http://www.cis.minsk.by/page.php?id=18908
12. Договор о коллективной безопасности // http://cis.minsk.by/reestr/ru/ index.html# reestr / view/ text?doc=79
13. Соглашение о сотрудничестве государств-участников содружества по обеспечению стабильного положения на их внешних границах // http://cis.minsk.by/reestr/ru/ index.html#reestr/view/ text?doc=143
14. Устав Организации Договора о Коллективной Безопасности // http://www. odkb.gov.ru/b/azg.htm
15. Турдиева З.Т. Военно-политическое сотрудничество Российской Федерации со

странами Центральной Азии в контексте проблем региональной безопасности: многосторонний формат // Вестник Кыргызско-Российского Славянского Университета. 2011, Том 11, № 2, с. 57-61
16. Чотаев З. Многосторонние структуры и правовые основы российской политики безопасности в Центральной Азии // Центральная Азия и Кавказ. 2006, №4, с.20-36.
17. Соглашение о группах военных наблюдателей и коллективных силах по поддержанию мира в Содружестве Независимых Государств // http://cis.minsk.by/ reestr/ru/index.html#reestr/view/ text?doc=62
18. Соглашение о коллективных миротворческих силах и совместных мерах по их материально-техническому обеспечению // http://cis.minsk.by/reestr/ru/ index.html#reestr/view/text?doc=251
19. Малышева Д. Проблема безопасности на Кавказе // Центральная Азия и Кавказ. 2001, №1, с. 41-56

## ОБ ЭКОНОМИЧЕСКОЙ ИНТЕГРАЦИИ И БЕЗОПАСНОСТИ В СНГ

**А.Ш.ШАХМУРАДОВ**

### РЕЗЮМЕ

Углубление социально-экономического и политического кризиса в СССР в конце 80-х годов XX века, привело к усилению центробежных тенденций. 8 декабря 1991 г. лидеры России, Украины и Беларуссии подписали Соглашение о создании Содружества Независимых Государств. 21 декабря Азербайджан, Казахстан, Узбекистан, Армения, Таджикистан, Кыргызстан, Молдова и Туркменистан также присоединились к СНГ. В декабре 1993 г. Грузия вступила в СНГ, а в 2008 г., после русско-грузинской войны вышла из организации. Несмотря на принятие многочисленных документов, уровень экономической интеграции в рамках СНГ, объем торговых отношений между государствами-членами остаются низким. Не достигнуты полностью также цели, провозглашенные в области безопасности.

**Ключевые слова:** СНГ, экономическая интеграция, Организация Договора о коллективной безопасности

## ECONOMIC INTEGRATION AND SECURITY IN THE CIS

**A.Sh.SHAKHMURADOV**

### SUMMARY

The deepening economic, social and political crisis in the USSR in the late 80s of the XX century led to increased centrifugal tendencies. On December 8, 1991 the leaders of Russia, Ukraine and Belarus signed an agreement on the establishment of the Commonwealth of Independent States. On December 21, Azerbaijan, Kazakhstan, Uzbekistan, Armenia, Tajikistan, Kyrgyzstan, Moldova and Turkmenistan joined the CIS. In December 1993, Georgia also joined the CIS, but left this organization after the Russian-Georgian war of 2008. Despite numerous documents, the present level of economic integration in the CIS, the volume of trade between Member States remain low. Not fully are achieved the goals set forth in the security field.

**Key words:** CIS, economic integration, Collective Security Treaty Organization